# "YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏY OLAQ"





**Prezident İlham Əliyevin 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Sərəncamı çərçivəsində Bakı şəhəri, Əliağa Şıxlinski adına 135 nömrəli məktəbdə keçirilən "Yaşıl dünya naminə həmrəy olaq" adlı tədbir keçirilib. Məktəbin şagirdləri, müəllimləri, valideyn icması və qonaqlar təbiətin qorunmasına diqqət çəkmək məqsədilə bir araya gəlib və müxtəlif ekoloji fəaliyyətlərə qatılıblar.**

Tədbir məktəb həyətində ağacəkmə aksiyası ilə başlayıb. Şagirdlər və müəllimlər şam ağacları əkərək, təbiətin qorunmasına öz töhfələrini veriblər. Bu fəaliyyət, uşaqlarda və gənclərdə təbiətə qarşı məsuliyyət hissinin inkişafına yönəlib. Daha sonra, məktəbin akt zalında tədbir davam edib. Məktəbin direktoru Ş.Qurbanova çıxış edərək təhsil müəssisəsində həyata keçirilən ekoloji təşəbbüslərdən, o cümlədən tullantıların çeşidlənməsi, suya qənaət, ağacəkmə və velosipedlə hərəkətin təşviqindən bəhs edib.

Şagirdlər, "Meşələrin əhəmiyyəti", "Hər ağac bir həyatdır" və "Ekoloji tarazlıq" mövzularında təqdimatlar və səhnəciklər təqdim edərək tədbirə rəngarənglik qatıblar. Tədbir boyunca sərgilənən rəsmlər və ekoloji təmiz materiallardan hazırlanmış əl işləri də iştirakçıların marağını cəlb edib. Xüsusilə, "ağıllı şəhər" və "ağıllı ev" maketləri ilə təkrar istehsal materiallarından hazırlanmış geyimlər çox sayda iştirakçı tərəfindən bəyənilib.

Tədbirin sonunda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin baş məsləhətçisi Mir-Həsənli Mehriban və Azərbaycan Respublikasının Təhsil İnstitutunun təlimçisi Sevinc Nəzərova çıxış edərək, təbiətin qorunmasının vacibliyi və "yaşıl öyrənmə"nin təhsildəki rolunu vurğulayıblar.

Tədbir, "Bir olaq, güclü olaq, həmrəy olaq" şüarı ilə yekunlaşıb və ekoloji məsələlərə diqqətin artırılması ilə bağlı birlik və həmrəylik nümayiş olunub. Bu tədbir həm təbiətə qarşı məsuliyyətli yanaşmanın, həm də məktəbdə ekoloji şüurun inkişafının vacibliyini bir daha göstərib.

Azərbaycan müəllimi.- 2024.- 28 dekabr, №48.- S.8.